

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 247 (21.908)

28 dekabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Xəbər verdiyimiz kimi, dekabrın 26-da Moskvada MDB dövlət başçılarının qeyri-rəsmi görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu il ərzində MDB məkanında inteqrasiya prosesləri üçün xeyli iş görülüb. Əmtəə dövriyyəsinin artması da bizim iqtisadiyyatlarımızın təkcə bərpasının, iqtisadi vəziyyətin sabitləşməsinin deyil, həm də dost ticari-iqtisadi əlaqələrin gələcəkdə möhkəmləndirilməsinin zəruriliyinin göstəricisidir.

Dövlətimizin başçısı vurğulayıb ki, biznes həmişə baş verən proseslərə çox dəqiq reaksiya verir və qarşılıqlı investisiyalar, əmtəə dövriyyəsinin artması ölkələr arasında münasibətlərdən heç də az dərəcədə asılı deyil. MDB məkanında müşahidə etdiyimiz müsbət meyillər, şübhəsiz, ticari-iqtisadi sahədə müşahidə etdiyimiz fəallığa təkan verib.

Sonda Rusiya Prezidenti Vladimir Putinin adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

## Naxçıvan Muxtar Respublikası investisiya reytinqində liderdir

***"Caspian Energy International Media Group" Azərbaycan Respublikasının Prezidenti, "Caspian European Club"un Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycanın iqtisadi regionlarının illik investisiya reytinqini hazırlayıb.***

Bu barədə "Caspian European Club"un sədrinin birinci müavini Telman Əliyev məlumat verib. Onun sözlərinə görə, Azərbaycan regionlarının investisiya reytinqinin lideri ən yüksək ümumi bal toplamış Naxçıvan Muxtar Respublikası olub. Sözügedən reytinq "Caspian Energy" jurnalının yekun nömrəsində dərc ediləcək.

"Reytinqin əsas rəqəmləri göstərir ki, ölkənin regionlarının 2017-ci ilin üç rübü ərzindəki iqtisadi inkişaf nəticələrinin ötən illə müqayisədə əsas fərqləndirici cəhəti regionların qeyri-bərabər sosial-iqtisadi inkişafıdır", – deyə Telman Əliyev bildirib. O vurğulayıb ki, Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin səfirləri "Caspian Energy" jurnalına müsahibələri zamanı Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafını xüsusilə qeyd edib, muxtar respublika rəhbərinin alternativ və bərpaolunan enerji mənbələrinə, həmçinin innovasiya texnologiyalarının tətbiqinə və turizmin inkişafına göstərdiyi diqqətə valeh olduqlarını söyləyiblər.

Naxçıvanda istehsal olunan məhsulların müxtəlifliyi və yüksək keyfiyyəti, həmçinin muxtar respublika rəhbərinin yerli iqtisadiyyatın inkişafı və regional məhsul çeşidlərinin şaxələndirilməsi üçün göstərdiyi səylər səfirlərdə yüksək təəssürat oyadıb. Onlar sənaye məhsullarının çeşidlərinin davamlı artırılması prosesinin Azərbaycanın digər regionlarında da getdiyindən əminliklərini ifadə ediblər.

"Bu reytinqi biz bir neçə il ərzində "Caspian European Club"un Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev üçün hazırlamışıq. Ötən ildən etibarən investisiya reytinqini "Caspian Energy" jurnalının yekun nömrəsində dərc edirik", – deyən Telman Əliyev bildirib ki, Ermənistan tərəfindən işğal olunmuş rayonlar üzrə statistikanın göstərilməsi qeyri-mümkün olduğundan onlarla müqayisə aparılmayıb. İşğal faktı ayrıca təsvir olunub ki, bu da, öz növbəsində, həmin mühüm problemi bir daha jurnalın geniş beynəlxalq oxucu auditoriyasının diqqətinə çatdırmaq imkanı yaradır.




On səkkiz parametr üzrə sıralanan regionlar altı qrupa bölünüb: sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı.

Telman Əliyev qeyd edib ki, "Caspian Energy" jurnalının bu nömrəsi dünyanın 70 ölkəsinin dövlət və hökumət başçılarına, həmçinin dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının və aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərlərinə təqdim olunacaq. 2017-ci ilin investisiya reytinqi ilə yanaşı, jurnalda həmin regionlarda fəal şəkildə işləyən müəssisə rəhbərlərinin məqalələri və müsahibələri də dərc ediləcək.

"Bizim təşəbbüsümüzü dəstəkləyən və jurnalın səhifələrində fəaliyyət göstərdikləri iqtisadi regionların qarşısında öz müəssisələrinin reklamını, həmçinin fəaliyyətləri ilə bağlı məlumatların əks olunduğu məqalə və müsahibələri yerləşdirməyə razılıq verən bütün şirkətlərə minnətdarlığımızı bildiririk. Biz sözügedən nəşrimizin səhifələrində təqdim olunmaq istəyən yeni şirkətlərlə də əməkdaşlığa açığıq", – deyən Telman Əliyev vurğulayıb ki, jurnalın qeyd olunan nömrəsində çap olunmuş məqalə və müsahibələrin hər biri Azərbaycanın regionlarının inkişafına uzunmüddətli investisiyaların cəlbi üçün əlavə təkan verə, potensial tərəfdaşların, həmçinin Azərbaycanda istehsal olunan məhsul və xidmət istehlakçılarının axtarışına kömək edə biləcək.

"Həmçinin xatırlatmaq istəyirəm ki, bu ilin əvvəlində Azərbaycanın bütün şəhər və rayonları üzrə geniş investisiya reytinqini *http://caspianenergy.net/ru* portalında ayrıca dərc edəcəyik", – deyə Telman Əliyev əlavə edib.

Qeyd edək ki, "Caspian Energy" jurnalında dünyanın müxtəlif dövlətlərinin prezident və baş nazirlərinin, həmçinin nüfuzlu beynəlxalq təşkilat və nəhəng transmilli şirkət rəhbərlərinin müsahibələri, aparıcı ekspertlərin analitik material və xülasələri çap olunur. Müxtəlif qiymətləndirmələrə görə, Xəzər-Qara dəniz və Baltik regionunun aparıcı nəşrlərinin ilk beşliyinə daxil edilmiş "Caspian Energy" jurnalı həmin regionların bir çox investorlarının fəaliyyətində əsas oriyentir rolunda çıxış edir.

**AZƏRTAC**

## Elmi-praktik konfrans keçirilib



***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə "Ulu öndər Heydər Əliyev milli həmrəyliyimizin banisidir" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov açıb.***

Mövzu ilə bağlı AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyevin məruzələri dinlənilib.

Məruzələrdə bildirilib ki, xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporlarının fəaliyyətə başlaması ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin bəhrəsidir. Belə ki, 1991-ci il dekabrın 16-da ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib.

Vurğulanıb ki, 1993-cü ildən başlayaraq dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan diasporunun formalaşdırılmasına nail olunub. Ulu öndərimizin xaricdə yaşayan soydaşlarımızla görüşləri zamanı verdiyi dəyərli məsləhətlər Azərbaycan diasporunun fəaliyyətinin canlanmasına və vahid məqsəd naminə birləşməsinə stimul verib.

Qeyd olunub ki, bu səylərin nəticəsi olaraq 9-10 noyabr 2001-ci il tarixdə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultayda dahi şəxsiyyət Heydər Əliyev çox böyük tarixi əhəmiyyət kəsb edən geniş nitq söyləyib. Ulu öndər xaricdə yaşayan azərbaycanlılara tövsiyə edərək deyirdi ki, dünyada yaşayan bütün azərbaycanlılar Azərbaycançılıq ideologiyası, müstəqil Azərbaycan dövlətinin üçrəngli bayrağı ətrafında sıx birləşməli, bu ideologiyaya öz əməli fəaliyyətləri ilə töhfə verməlidirlər. Həmin qurultaydan sonra dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı öz ətrafında birləşdirən icmaların mütəşəkkilliyi və fəallığı daha da artıb.

Diqqətə çatdırılıb ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət hazırda dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən müddətdə keçirilən dünya azərbaycanlılarının sonrakı qurultaylarında xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması istiqamətində geniş fikir mübadiləsi aparılıb, əhəmiyyətli nəticələr əldə olunub, qarşıda duran vəzifələr müzakirə edilib. Həmin qurultaylar zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynayıb, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəylik bayramına çevrilib.

Bildirilib ki, hazırda dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun 400-dən artıq təşkilatı fəaliyyət göstərir və onların hər biri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə öz töhfəsini verir. Bu da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ideologiyanın təntənəsidir.

Sonra məruzələr ətrafında çıxışlar olub.

## Cari ildə də sahibkarlara kreditlərin verilməsi davam etdirilib

***Muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsində dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi, sahibkarların işgüzar əlaqələrinin inkişafı, müxtəlif növ xidmətlərin və maliyyə dəstəyinin göstərilməsi kimi kompleks islahatların aparılması mühüm rol oynayır.***

Bu məqsədlə yaradılmış Sahibkarlığa Kömək Fondunun fəaliyyəti diqqəti cəlb edir. Fond cari ilin ötən dövrü ərzində də üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışıb. Bəhs olunan dövrdə fond tərəfindən 20 layihənin maliyyələşdirilməsinə 1 milyon 879 min 700 manat həcmində güzəştli kredit verilib. Həmin vəsaitdən kənd təsərrüfatı yönümlü 15 layihənin maliyyələşdirilməsinə 303 min 700 manat, sənayeyönümlü 3 layihənin maliyyələşdirilməsinə 1 milyon 105 min manat, xidmət sahəsinin inkişafı yönümlü 2 layihənin maliyyələşdirilməsinə 471 min manat yönəldilib.

Bütün bunlar isə dövlət maliyyə dəstəyi ilə kənd yerlərində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə şərait yaradıb.

Bəhs olunan dövrdə kənd təsərrüfatı sahəsində bağçılıq üzrə 1 layihənin maliyyələşdirilməsinə 25 min 100 manat, quşçuluq üzrə 1 layihənin maliyyələşdirilməsinə 17 min manat, arıçılıq üzrə 2 layihənin maliyyələşdirilməsinə 15 min manat, "Orqanik Məhsul Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinə kənd təsərrüfatı texnikasını alması və əkin işlərinin aparılması üzrə 1 layihə üçün 40 min manat, heyvandarlıq üzrə 10 layihəyə 206 min 600 manat kredit verilib.

Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi əhalinin məşğulluq səviyyəsini də artırır. Belə ki, fondun vəsaiti və özəl investisiya hesabına bu ilin ötən dövrü ərzində yaradılmış 38 layihə üzrə 600-dən çox yeni iş yeri açılıb.

Həyata keçirilən tədbirlər yerli istehsal məhsullarının həcminin genişləndirilməsinə, çeşidinin artırılmasına, həmçinin ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalına imkan verir. Bunun nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrində 121 növdə 555 çeşiddə ərzaq, 247 növdə 845 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 368 növdə 1400 çeşiddə məhsul istehsal olunur. 108 növdə ərzaq, 236 növdə qeyri-ərzaq olmaqla, ümumilikdə, 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Əldə olunmuş nailiyyətlər muxtar respublikada sahibkarlıq üçün əlverişli şərait yarandığını, iqtisadiyyatın bu sektorunda çalışanlara dövlət tərəfindən hər cür qayğı göstərildiyini bir daha təsdiq edir.

**Xəbərlər şöbəsi**

## Sərhəd kəndi qorunursa, abadlaşırsa, orada yaşamaq çətin deyil

### *Bu amil şadalıları doğma yurd yerinə möhkəm tellərlə bağlayıb*

*Yazıya giriş*

Muxtar respublikamızın coğrafi mövqeyi onun tarixi taleyinə bir çox yaşayış məntəqələrində mənfur düşmənlərimizə həmsərhəd olmaq qisməti yazıb. Belə yurd yerlərimiz onlarladır. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizli, gah da aşkar həyata keçirən erməni daşnaklarının 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların törətdiyi məlum hadisələr sərhəd kəndləri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı. O ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu, "Torpaq uğrunda ölən varsa, Vətəndir", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun" amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız. Bu mücadilədə sağlamlığını qismən itirən, öz evəşiyinə şikəst kimi qayıdanlar da az olmadı. Onlarla igidimiz isə şəhidlik zirvəsinə ucaldı.

Belə yaşayış məntəqələrində dəfələrlə olmuş, o ünvanların sakinləri ilə görüşmüş, onların həyat tərzindən yazılar hazırlamışam. Qəlbimdən həmişə belə minnətdarlıq duyğuları keçib: məhz bu qorxmaz, igid, cəsur, ölümün gözünə dik baxan, qəvi düşmənlə bir addımlıqda yaşayan insanlar əsl vətənpərvərlik örnəkləridir. Necə deyərlər, dildə yox, əməldə vətənpərvərdirlər. Vətən onlar üçün ən qiymətli ata-baba əmanətidir, ona sadiqliyi məhz belə insanlardan əxz etmək olar.

*Şadalılar kimi...*

Şahbuz rayonunun Şada kəndi belə ünvanlardan biridir. 180 sakini var. Bir ailəni xatırladan bu kəndin sakinləri illərdir ki, düşmən qabağında bu torpağa öz sevgisini, ehtiramını, məhəbbətini göstərir. Onlar yaşadıqları yurd yerinin keşiyində ayıq-sayıq dayanmağı vətəndaşlıq borcuna çeviriblər. Necə deyərlər, Şada kəndi və şadalılar düşmənə gözdağıdır. Dövlətimiz də bu yaşayış məntəqəsinin, kənddə yaşayan insanların problemlərinin həllini diqqət mərkəzində saxlayıb. 2008-ci ilin sentyabr ayında burada kənd tam orta məktəbi, feldşer-mama məntəqəsi istifadəyə verilib. Kəndə içməli su xətti çəkilib. 2009-cu ildə isə kənddəki hərbi hissə üçün əsgəri-məişət-yaşayış kompleksi və zabit ailələri üçün 2 mərtəbədən ibarət 8 mənzilli yaşayış binası istifadəyə verilib. Buraya 3 mənbədən su xətti çəkilib.

Bu məlumatları Şada kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Bəxtiyar Abbasovdan alıram. Onunla ilk baş çəkdiyimiz ünvan Şada kənd tam orta məktəbi olur. Təhsil ocağında 11 sinif otağı, hərbi kabinə,



fənn laboratoriyaları, müəllimlər və psixoloq otaqları, kompüter sinfi, idman zalı, kitabxana vardır. Məktəbdə 16 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 16 müəllim məşğul olur. Məktəbin direktoru Ayxan Mehdiyev ixtisasca müəllim olan həyat yoldaşı ilə bu məktəbə könüllü olaraq gəliblər. Ayxan müəllimin söhbəti:

– Burada işlədiyim iki il müddətində şadalıları torpağa bağlı insanlar kimi tanıdım. Belə olmasaydı, vaxtilə onlar da rahat həyat naminə köçüb buradan gedərdilər. Rahat həyat deyəndə elə burada da belə həyat yaşanır. O çətin günlər arxada qalıb. Kənd camaatı əsgərlərlə bir ailə kimi yaşayır Şadada. Belə sıx əlaqə, mehribançılıq əlamətdar və bayram günlərində daha çox özünü göstərir. Odur ki, şadalılar belə strateji ərazidə yaşamaqdan qətiyyən çəkinmirlər.

Tərifə Məmmədova şadalı məktəblilərə dilimizin və ədəbiyyatımızın incəliklərini öyrədir. Məktəbdə yaradılmış şəraitdən razılıq edir:

– Şada dəniz səviyyəsindən 1500-2000 metr yüksəklikdə yerləşir. Bu da yaşayış məntəqələrində təmiz havanın və suyun olması deməkdir. Odur ki, bu kənddə sağlam həyat yaşanır. Çalışırıq ki, belə sərhəd bölgəsində yaşayan insanların övladlarına yüksək səviyyədə elm, bilik öyrədək. Bunun üçün pedaqoji kollektiv öz gücündən səmərəli istifadə edir. Şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından, laboratoriyalardan, idman qurğularından, zəngin kitabxana fondundan istifadəsi təmin olunub. Sərhəd bölgələrində yaşamaq böyük vətənpərvərlikdir. Şagirdlərimiz də məhz bu ruhda formalaşdırılırlar. Məktəbdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli "Oxunması zəruri olan kitablar



haqqında" Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Məktəb kitabxanasında həmin kitablardan ibarət guşə də yaradılıb. Siyahıda özünə yer almış qəhrəmanlıq abidəmiz "Kitabi-Dədə Qorqud" dastanının müzakirəsini keçirmişik. "Torpağı qorumursansa, əkməyə, əkmirsənsə, qorumağa dəyməz" adlanan müzakirədə valideynlər də iştirak edirdilər. Belə tədbirləri müntəzəm olaraq davam etdirəcəyik.

Kənd tam orta məktəbinin tarix müəllimi Tansu Abbaslı Şada kəndi və toponimi haqda ətraflı məlumata malikdir. Deyir ki, mənbələrdə bu adın 1590-cı ildə Dərə Şahbuz nahiyəsində qeydə alınması barədə məlumatlar var. Bəzi tədqiqatçıların elmi mülahizələrinə görə, bu ad qədim türk mənşəli Şato tayfasının adını əks etdirir. XII-XIII əsrlərdə Orta Asiyada baş vermiş siyasi hadisələrlə əlaqədar müxtəlif ərazilərə səpələnən Şato tayfası Azərbaycana oğuzlarla gəliblər. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun ehtimalına görə, bu ad türk mənşəli "şad" sözünə "a" şəkilçisi artırılması yolu ilə yaranıb. "Şad" sözü qədim türk və uyğur xaqanlığında titul mənasında işlənib. Vaxtilə türklər ordu qəhrəmanı, ordu başında duran igidə "şad" deyiblər. Bu söz qədim türklərdə həm də tayfa adıdır.

Türk mənşəli Şada, Şadı tayfası müxtəlif ərazilərdə maldarlıqla məşğul olub. Çox güman ki, həmin tayfaya məxsus ailələrin bir qismi də Şada kəndində məskunlaşıb və tayfa adlarını qoruyub saxlayıb. Tansu müəllimə onu da diqqətimizə çatdırdı ki, pedaqoji kollektiv doğma yurd yerinin tarixini, adət-ənənələrini, 1988-ci ildə başlanan hadisələr dövrü yaşanmış həqiqətləri şagirdlərin dərindən öyrənmələrinə, onların dövlətçiliyimizə, müstəqilliyimizə sədaqət ruhunda tərbiyə olunmalarına ciddi önəm verir, bunu özünün başlıca vəzifələrindən sayır.

Yeri gəlmişkən onu da qeyd edək ki, məktəbin foyesində dövlət rəmzlərimiz, Azərbaycan Vətən müharibəsində qəhrəmanlıq göstərərək sağlamlıqlarını qismən itirən, həmçinin torpaqlarımızın bütövlüyü uğrunda şirin canından keçərək şəhidlik zirvəsinə ucalan eloğullarımızla bağlı hazırlanmış stend, o dövrün hadisələrini özündə əks etdirən qəzet, kitab materialları, fotoşəkillər bu məsələnin həllində istifadə olunan vasitələrdən biridir.

Bəxtiyar Abbasov söhbətə qoşularaq deyir ki, Şadada torpaq qorunur da, əkilir də. Kənd sakinləri meyvəçilik, arıçılıq, əkinçilik, heyvandarlıqla məşğul olurlar.

*Kəndə müxbir gəlib və ya sakinlərlə söhbət qürur doğurur*

Şadaya müxbir gəldiyini eşidib bir neçə sakinin kənd mərkəzinə yığışdığını deyən Bəxtiyar Abbasovla birgə onlarla görüşməyi qərara alırıq. Əvvəlcə onu deyim ki, kənd mərkəzində bu yaşayış məntəqəsində fəaliyyət göstərən qurumlar üçün müasir iş şəraiti yaradılıb. 87 yaşlı kənd sakini Vəli Heydərov da yaradılan bu şəraitdən razılığını bildirərək dedi ki, Şadanın dünənini də görüb, bu gününü də. Heç müqayisə etməyə dəyməz. Fərq yerlə göy arasındadır. O və onun kimi yaşlı şadalılar kəndin belə qayğı ilə əhatə olunmasını ulu öndərin ölkəmizdə yenidən hakimiyyətə qayıtması ilə izah edirlər. Vəli kişi deyir ki, ölkənin başsız qaldığı bir dövrdə dahi rəhbər Azərbaycanı qurtarmaq üçün ulu Tanrının xalqımıza göndərdiyi bir xilaskar idi. O gəldi və öz vəzifəsini yerinə yetirdi. Hər bir azərbaycanlı bugünkü müstəqil Azərbaycan üçün məhz xalqımızın böyük oğluna minnətdardır. Bir vaxtlar gözdənuzaq, könüldəniraq olan Şada kəndi də ulu öndərimizin muxtar respublikada uğurla davam etdirilən siyasətinin bəhrəsi ilə bugünkü inkişaf və tərəqqisinə qovuşub.

Əhməd Həsənov da Vəli kişi ilə həmyaşıddır. Ömrünün 9-cu onilliyini başa vurmaqdadır. Deyir ki, bu gün Şadada yaşayan gənclər belə günlərin asanlıqla başa gəlmədiyini dərk edirlər. Odur ki, Şadada qurulan, yaradılanların qədrini bilirlər. Bilirlər ki, bütün bunlar indiki və gələcək nəsillər üçündür. Əhməd kişi onu da deyir ki, şadalılar torpaqlarını qorumağı bacardıqları kimi, bu qiymətli sərvətdən məhsul bolluğu yaratmaq üçün səmərəli istifadə etməyi də yaxşı bilirlər.

*Uzaqda olmayan gün*

Torpaq, qorunan, becərilən yer insan əli ilə Vətənə çevrilir. Torpaq qorunursa, orada yaşamaq heç də çətin deyil. Kəndin qədirbilən insanları bu həqiqəti dərindən dərk edirlər. Şadalıları bu doğma yurd yerinə möhkəm tellərlə bağlayan da məhz bu amildir. Onlar inanırlar ki, dövlətimizin apardığı sülhməramlı siyasət gec-tez öz bəhrəsini verəcək, işğal altında olan torpaqlarımızda da Şadada yaradılmış şərait təmin ediləcək.

O gün uzaqda deyil.

**Muxtar MƏMMƏDOV**

## Yeni il yarmarkasında bolluq və ucuzluqdur



***Yeni il ərəfəsində Naxçıvan bazarlarında bolluqdur. Şübhəsiz, bolluq olan yerdə ucuzluq da olacaq. Bu gün Naxçıvanın əvvəlki çətin günlərindəki kimi, dükan-bazarda müştərilərin qiymətdə, çəkidə və keyfiyyətdə aldadılması halları çoxdan arxada qalıb. İndi belə hallara qarşı ciddi nəzarət tədbirləri həyata keçirilir. Digər tərəfdən, hər il olduğu kimi, bu il də Yeni il bayramı ərəfəsində Naxçıvan şəhərindəki kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında əhalinin bütün növ ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün topdan qiymətinə pərakəndə ticarət xidmətləri təşkil olunub.***

Naxçıvan şəhəri, Xətai küçəsindəki Mərkəzi bazarda dekabrın 25-dən 31-dək təşkil olunmuş yarmarkada yerli məhsulların istehsalı üzrə ixtisaslaşmış 44 sahibkar tərəfindən alıcılara 147 adda və 250 çeşiddə məhsul təqdim olunur. Bunlardan əlavə, idxal mənşəli meyvə-tərəvəz məhsullarının da topdan qiymətinə pərakəndə satışı üzrə 8 sahibkar da burada xidmətlər göstərir. Hər gün səhər saat 8-dən başlayaraq fəaliyyət göstərən yarmarkada alıcıların rahat alış-veriş etməsi üçün lazım olan bütün şərait yaradılıb. Burada səliqəli, təmiz və bayram əhval-ruhiyyəli ticarət xidmətləri göstərilir. Yarmarkaya məhsul gətirən sahibkarlarla yanaşı, muxtar respublikamızın bütün bölgələrindən ailə təsərrüfatlarının istehsalı olan "Orqanik məhsul" etiketli çox çeşiddə məhsulları bazar qiymətlərindən 10-25 faiz aşağı qiymətlərlə almaq mümkündür.

Yarmarkada diqqətimizi ilk çəkən guşə girişdəki "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus yer oldu. Satıcı Ramil Dünyamalıyev bildirdi ki, məhsullara tələbat böyükdür. Hər gün çox sayda alıcı nəfis qablaşdırılmış yüksəkkeyfiyyətli quru meyvələrdən, pendir, turşu, cem və kompotlardan alır. Onlar da çalışırlar ki, bayramqabağı bütün alıcıların tələbatlarını ödəyən məhsulları satışa çıxarsınlar.

Bərəkətli Şərur torpağının nemətləri muxtar respublikamızın hər yerində süfrələrimizi bəzəyir. Öz məhsullarını yarmarkaya gətirmiş Muğanlı kənd sakini Cəfər Səfərov və vərməziyarlı Ölövsət Məmmədov da yarmarkanın təşkilindən razılıq etdilər. Bildirdilər ki, öz fərdi təsərrüfatlarının məhsulu olan gülkələm, çuğundur, sarımsaq, alma, armud, yerkökü, turp, qabaq, kartof, soğan alıcılar tərəfindən həvəslə alınır.

Şahbuz dağlarının nemətlərini alıcılara tanıdan Keçili kəndindən gəlmiş Sərvər Əliyev isə satmağa gətirdiyi zirinci, həmərsini, keçi pendirini, dağ armudu turşusunu, qar kimi ağappaq cəviz ləpəsini müştərilərinə tərifləyirdi. Ondan məhsullara olan tələbatı soruşduqda qazancından razılıq etdi. Eyni əhval-ruhiyyəni nehrəmli təsərrüfatçı Füzuli Həsənovla və ordubadlı Aslan Rüstəmovla da qısa söhbətimizdə duyduq. Şübhəsiz, onların piştaxtaya düzdüyü Nehrəm pendirini, qarpız mürəbbəsini və turşusunu, hər çeşiddə Ordubad mürəbbələrini, sucuğu, lavaşanı təkcə Naxçıvanda deyil, ölkəmizin digər yerlərində də alıcılar yaxşı tanıyırlar.

Bəli, bu il də Naxçıvandakı Yeni il yarmarkasında bolluqdur. Hər il olduğu kimi, bu il də əhalinin istehlak zənbilinin geniş olması üçün qiymətlər nəzarətdə saxlanılıb, ucuzluq yaradılıb. Bu iş çətin olsa da, halal zəhmətlə başa gələn hər bir nemətin müştərisi çox, bərəkəti bol olur. Qoy bayram süfrəmizdə həmişə belə bolluq olsun.

**Ə.CABBAROV**

***Muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası torpaq mülkiyyətçiləri üçün əlavə imkanlar açıb.***

## Qahab kəndində yeni meyvə bağları salınıb

Sahibkarlar fərdi təsərrüfatlarında yeni meyvə bağları salır, əldə etdikləri məhsulları bazar-dükanlara çıxarır, zəhmətlərinin qarşılığını görürlər. Babək rayonunun Qahab kəndinin sakinləri də pay torpaqlarında yeni meyvə bağları salıblar. Həmin bağlarda fındıq və heyva tingləri əkilib.

Kənd məktəbinin müəllimi Allahverdi Məmmədov asudə vaxtını yeni saldığı bağda keçirir. 4 il bundan öncə özünün pay torpağında alma, gilas, göyəm və digər meyvə sortlarından ibarət bağ salıb. Artıq zəhmətinin bəhrəsini görür. Sahibkar bu mövsümdə bazar-dükanlara yaxşı məhsul çıxarıb. Bir hektardan artıq sahəni əhatə edən bağda tinglərin bəziləri ölkəmizin digər bölgələrindən – Tərtər, İsmayıllı və Qəbələdən gətirilib. Sahibkarın sözlərinə görə, meyvə bağlarının sahəsinin genişləndirilməsi mühüm iqtisadi əhəmiyyətə malikdir. Belə ki, təsərrüfatlar genişləndikcə meyvəçilik də inkişaf edir və bununla da, daxili bazarda keyfiyyətli yerli məhsulların həcmi artır.

Allahverdi müəllim bu ilin payız əkinləri zamanı fındıq tinglərindən ibarət daha bir bağ salıb. Tingləri, əsasən, Quba rayonundan gətirən sahibkar deyir ki, balaca fidanlar 5-6 ilə məhsul verəcək.

Qahablı Mənsum Həsənov da torpaq mülkiyyətçilərinə yaradılan şəraitdən faydalanıb. 3 il əvvəl ərik bağı salan müsahibimiz bu il təsərrüfatını genişləndirərək 800 heyva, 400 ərik və 35 cəviz tingi əkib. Yerli sortlara daha çox üstünlük verən Mənsum Həsənov bunun üçün rayonun Qaraqala kəndindəki tingçilik təsərrüfatına tez-tez üz tutur, bağına aqrotexniki qulluq göstərir.

**Muxtar RZAZADƏ**

# Bəşəriyyətin beşiyində ilahi möcüzə

## Akademik İsa Həbibbəylinin "Duzdağ mozaikası" kitabı haqqında düşüncələr

***Bu yaxınlarda Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin Naxçıvanın dünya miqyasında tanınan özünəməxsus sərvəti olan duza, Duz dağına, duz mədənlərinə həsr olunmuş "Duzdağ mozaikası" kitabı işıq üzü görüb. Bakıda "Elm və təhsil" nəşriyyatında yüksək poliqrafik keyfiyyətlə və dizaynla nəşr olunan 308 səhifəlik kitabın elmi redaktoru AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir.***




"Dövlətçilik işığında", "Bir yüngülvari müqəddimə", "Tarixi mənbələrdə Duzdağ", "Duzdağ araşdırmaları", "Dünyanın Duzdağı", "Duzdağ odası" və "Duzdağ mozaikası – danışan şəkillər" adlı yeddi bölmədən ibarət olan kitab Naxçıvandakı Duzdağ ilə hərtərəfli tanışlıq üçün böyük məlumat bazası ilə diqqəti cəlb edir. Bu cür zəhmət tələb edən bir nəşrin ortaya çıxması həm də vətəndaşlıq mövqeyinin elmi ifadəsi kimi səciyyəvidir.

Kitabın "Dövlətçilik işığında" adlı bölməsi ilə tanışlıq belə əhəmiyyətli nəşrin yazılma səbəbi haqqında kifayət qədər məlumat verir. Kitabın girişində xalqımızın ümummilli lideri Heydər Əliyevin aşağıdakı fikirləri özünə yer tapıb: *"Naxçıvanın çox gözəllikləri var. Birincisi, onun təbiətidir. Azərbaycanın hər yerində gözəl guşə tapmaq olar. Haraya gedirsən, Azərbaycan gözəl bir yerdir. Amma mən bu gün Naxçıvandayam və Naxçıvan haqqında danışıram. Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. Bax, ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar, – burada yaşıllıq azdır, – bu, diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik, yenə də deyirəm, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi insanlar da məğrurdur".*

Ölkə Prezidenti cənab İlham Əliyevin bu fikirləri də kitabın əvvəlində yer alıb: *"Naxçıvanın rəmzlərindən biri də təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağdır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınmışdır. Hələ Nuh-Nəbi dövründən burada duz çıxarılır. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə Duz yolu uzanırdı. Həmin ölkələrə buradan duz daşınırdı. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında, dağında, daşında tarixin sirli, sehrli izləri gizlənmişdir".*

Bildiyimiz kimi, 2012-ci ilin iyul ayında Naxçıvan şəhərində "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda elmi konfransın keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 20 aprel tarixli Sərəncamı nəinki Naxçıvanın, eləcə də Duzdağın bir çox cəhətdən elmi dövriyyəyə daxil edilməsində mühüm rol oynayıb. Məhz elə həmin Sərəncamda deyilən aşağıdakı fikirlər Duzdağın böyük mədəniyyətin formalaşmasındakı rolunu ortaya qoyur: *"Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən mühüm amillərdən biri də son illər aşkara çıxarılan və elmi-tədqiqata cəlb olunan Naxçıvan Duzdağ mədəniyyətidir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 3-cü minillikdən bu proses daha da geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində, şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır".*

Ötən aylarda isə, daha dəqiq ifadə etsək, 2017-ci il 12 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" Sərəncam imzaladı. Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu nəzərə alaraq, aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, elmi araşdırmalar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə imzalanan bu Sərəncam akademiki qısa zaman ərzində operativ tədqiqatlara sövq edib. Bunu biz "Bir yüngülvari müqəddimə" bölməsindəki "Duzdağ: Nuhdabandan Naxçıvana" məqaləsində açıq-aydın müşahidə edirik. İsa Həbibbəyli həmin məqaləsində bildirir ki, "Duz da od və su kimi, geniş mənada, insanlığın formalaşmasında iştirak edən əsas amillərdən biridir... Duzun kəşf olunması ilə insanlıq mədəni həyat tərzinə qədəm qoymuşdur. Duzun kəşfi ibtidai insan birliklərinin oturaq mədəni həyata keçidinin inqilabıdır. Naxçıvan Duzdağı yer üzündəki ən qədim duzun məskənlərindən biridir. Mənbələrdə Naxçıvan Duzdağının Nuh Peyğəmbər tərəfindən aşkar edilməsi haqqında əsatirlər yaşayır. Beləliklə, əfsanəvi gəmisi ilə bəşəriyyəti Dünya tufanından xilas etmiş Nuh Peyğəmbər Naxçıvan Duzdağını kəşf etməklə ilkin insan cəmiyyətinin yaradılmasının əsasını qoymuşdur. Nuh Peyğəmbər duz ixtirasının Prometeyidir".

İsa Həbibbəyli müqəddimədə Naxçıvan Duzdağının, geniş mənada, mahiyyəti, insanlıq üçün oynadığı rolu, şəhər mədəniyyətinin formalaşmasındakı əhəmiyyətini məntiqli şəkildə ortaya qoyub, zamanla Duzdağın sirlərinin aydınlaşdırılması nəticəsində ölkəmizin, eləcə də Naxçıvanın bəşər sivilizasiyasının inkişafındakı yeri və roluna dair qiymətli səhifələrin açılmasındakı əhəmiyyətini göstərib.

Kitabın "Tarixi mənbələrdə Naxçıvan" bölməsində biz müxtəlif tarixi mənbələrdə və nəşrlərdə Vosboynikov, generel-mayor Skalo, Pavel Şeremetyevski, İ.Lena, Konstantin Nikitin, A.M.Marqolus və başqalarının yazıları ilə ətraflı tanış oluruq.

"Duzdağ araşdırmaları" bölməsində isə tanınmış elm adamları və tədqiqatçılardan İsmayıl Hacıyevin, Vəli Əliyevin, Məhəmmədəli Hüseynovun, Vəli Baxşəliyevin, Hacı Qadir Qədirzadənin, Əlövsət Quliyevin, Nizami Alıyevin, Yaşar Rəhimovun, Rafiq Babayevin, Əkrəm Hüseynzadənin, Məhsəti İsmayılın, Elmar Hüseynovun və digərlərinin son illərdə qələmə aldıqları duzla bağlı tədqiqatların öz əksini tapdığı məqalələrlə tanış oluruq.

Kitabdakı növbəti bölmə "Dünyanın Duzdağı" adlanır və burada Katrin Marro, Karolina Hamon kimi əcnəbi müəlliflərin, həmçinin müxtəlif xarici ölkə mətbuatında Naxçıvan Duzdağı haqqında dərc edilmiş yazılar toplanılıb.

Akademik İsa Həbibbəylinin yorulmaz axtarışları təkcə qədim məxəzlərlə, elmi-kütləvi nəşrlərlə kifayətlənməyib. O, Duzdağın bədii şəkildə tərənnüm olunduğu poeziya nümunələrini də diqqətdə saxlayıb. Belə ki, "Duzdağ odası" adlanan növbəti bölmədə Naxçıvan Duzdağına həsr edilmiş şeirlər toplanılıb. Burada biz Xalq şairləri Qabilin, Fikrət Qocanın, həmçinin İslam Səfərlinin, Hüseyn Razinin, Əliyar Yusiflinin, Elman Həbibin, Asim Yadigarın, Vaqif Məmmədovun, Muxtar Qasımzadənin, Zaur Vedilinin və başqalarının şeirləri ilə də tanış olmaq imkanı əldə edirik. Akademik İsa Həbibbəylinin özünün qələmə aldığı "Duzdağ odası" şeiri də özünəməxsusluğu ilə seçilir.

Kitabın sonuncu bölməsi "Duzdağ mozaikası – danışan şəkillər" adlanır və burada yer alan şəkillərlə biz Naxçıvan Duzdağının qeyri-adi rənglər mozaikası, əmək alətləri, duzun çıxarılma prosesi, duz mədənləri, duz şəlalə, duz çayları ilə tanış oluruq.

*Ümumiyyətlə, akademik İsa Həbibbəylinin "Duzdağ mozaikası" kitabı Naxçıvan Duzdağının əhatəli və ətraflı öyrənilməsi və bu barədə məlumatların bir toplu halında cəm olunduğu nəşr kimi çox əhəmiyyətlidir. Əminik ki, bu kitab duzla bağlı sonrakı tədqiqatlar üçün də yeni istiqamətlər verəcəkdir.*

**Elxan MƏMMƏDOV**
***filologiya üzrə fəlsəfə doktoru***

# Ali təhsil ocağında AESOP layihəsi uğurla həyata keçirilir

***Naxçıvan Dövlət Universitetində akademik ombudsmanın təyinatına həsr olunmuş yığıncaq keçirilib.***

Tədbirdə ali təhsil ocağının beynəlxalq layihələrdə iştirakından söz açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov AESOP (Advocacy Establishment for Students through Ombudsman Position) – "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsindən söz açıb. Rektor universitetdə bu vəzifənin yaradılmasının Avropa təhsil sisteminə inteqrasiya yolunda mühüm addım olduğunu qeyd edib.

Universitetin akademik ombudsman vəzifəsinə Ceyran Quliyevanın namizədliyi irəli sürülüb. Səs çoxluğu ilə o, universitetin akademik ombudsman vəzifəsinə təyin olunub.

Layihə barədə məlumat verən Xarici tələbələrlə iş üzrə dekan, Universitetin AESOP layihəsi üzrə işçi qrupunun üzvü, dosent Ceyran Quliyeva qeyd edib ki, layihə çərçivəsində universitet əməkdaşları üç ölkədə – Polşa, Portuqaliya və İtaliya universitetlərində fəaliyyət göstərən ombudsman ofisləri, onların iş fəaliyyəti, bu vəzifəni yerinə yetirən nümayəndələrlə tanış olublar. Həmçinin tədbir iştirakçılarına akademik ombudsmanın səlahiyyətləri haqda da məlumat verilib.



Qeyd edək ki, "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsinə ERASMUS+ proqramı çərçivəsində 2016-cı ildən start verilib. Layihədə ölkəmiz üzrə Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2 dövlət, 3 özəl universitet və Şərq tərəfdaşlığı ölkələrindən Gürcüstan üzrə 3, Ukraynadan 2 universitet təmsil olunub. Partnyor ölkələr qismində isə hər birindən bir təşkilat olmaqla, Böyük Britaniya, İtaliya, Avstriya, Portuqaliya, Polşa və Finlandiya çıxış edir. 3 il davam edəcək layihənin əsas məqsədi tələbələrin hüquqlarının qorunma mexanizminin yenidən hazırlanması və onların təhsillərinin uğurla başa çatdırılmasının dəstəklənməsi nəzərdə tutulur.

**Nərmin CABBAROVA**

***Müasir dövrdə avtomobil nəqliyyatından istifadə tələbatlarımızın mühüm bir hissəsini təşkil edir. Bununla yanaşı, insan həyatına vaxt qənaəti və rahatlıq gətirən avtomobillərlə hərəkət zamanı bəzən gözlənilməz hadisələr də baş verir. Əhalinin rifah halının yüksəlməsilə paralel olaraq avtonəqliyyat vasitələrinin sayının artması, xüsusən də qış fəslində qarlı havalarda qəza hallarının başvermə ehtimalını artırır. Bu da avtonəqliyyat vasitəsi sahiblərinə maddi zərər vurur. Buna görə də avtonəqliyyat vasitələrinin icbari sığorta olunması bu günlərdə daha da önəm qazanır. Çünki avtomobil sahibləri öz mülki məsuliyyətlərini sığorta etdirməklə baş verən bədbəxt hadisələrin vurduğu maddi zərərlərin əvəz edilməsinə nail olurlar.***

# Mülki məsuliyyətin sığortası avtomobillərə dəymiş zərərlərə maddi zəmanət verir

Onu da qeyd edək ki, belə maddi zərərlər həm avtomobil sahiblərinə, həm də digər insanlara, yəni üçüncü şəxslərə dəyə bilər. Sığorta fəaliyyəti haqqında ölkəmizdə mövcud olan qanuna əsasən bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyə biləcək zərərləri ödəmək üçün avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası həyata keçirilir. Dəymiş zərərin əvəzinin şəxsin özü tərəfindən deyil, sığorta agentliyi tərəfindən ödənilməsi bu sığorta növünün əsas məqsədidir. Avtomobillərdən istifadə zamanı risk dərəcəsi yüksək olan elə hadisələr baş verir ki, bu zaman həm avtomobilin özünə, həm də baş verən hadisənin digər tərəfinə – üçüncü şəxslərin həyatına, sağlamlığına, mal və əmlakına da zərərlər dəyə bilər. Belə zərərlər vurulduqda avtomobil sahiblərinin çıxılmaz vəziyyətə düşməməsi üçün onların vaxtında sığorta olunması əsas şərtdir. Gözlənilən risklərin səviyyəsini nəzərə alaraq avtomobil sahibi olan hər bir şəxsin mülki məsuliyyətinin sığortası icbari qaydada tətbiq olunur.

Təcrübə göstərir ki, gözlənilməz qəza hallarında dəyə biləcək zərərin hansı məbləğdə ola biləcəyini əvvəlcədən demək çətindir. Elə sığorta hallarını misal göstərmək olar ki, bu zaman dəymiş zərərlər avtomobil sahibinin maddi imkanlarından dəfələrlə çox ola bilər. Qəza törətmiş avtomobil sahibinin mülki məsuliyyət sığorta müqaviləsi olduqda isə onun qarşı tərəfə vurduğu zərəri özü deyil, risklərini həvalə etdiyi sığortaçı ödəyir.

Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortasının aparılması 2011-ci il 24 iyun tarixli "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılır. Bu qanuna görə, mühərrikinin həcmi 50 kubsantimetrdən artıq olan avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası icbaridir. Müəyyənləşdirilmiş normalara əsasən icbari sığortahaqqı bundan sonra baza məbləğinə əmsallar tətbiq olunmaqla aparılır. Hazırkı sığortahaqqının baza məbləği 50 manat müəyyən edilib ki, bu da mühərrikinin həcmi 50 kubsantimetrdən 1500 kubsantimetrədək olan minik avtomobillərində tətbiq edilir. Mühərrikinin həcmi 1500 kubsantimetrdən yuxarı həcmli olan minik avtomobillərinin sığortahaqqı əmsallar tətbiq olunmaqla hesablanır. Məsələn, mühərrikinin həcmi 1500-2000 kubsantimetrədək olan minik avtomobilləri üçün 1,5 əmsal tətbiq olunaraq sığortahaqqı 75 manat müəyyənləşdirilir. Mühərrikinin həcmi 2000 kubsantimetrdən 2500 kubsantimetrədək olan minik avtomobilləri üçün 2,0 əmsal tətbiq olunmaqla, 100 manat sığortahaqqı müəyyən edilir. Mühərrikin həcmi artdıqca tətbiq olunan əmsalla sığortahaqqının məbləği də yüksəlir.

Yük avtomobilləri və onların bazasında istehsal olunmuş digər avtomobil nəqliyyat vasitələri üçün icazə verilən maksimum kütləsinə görə 3500 kiloqram olduqda 3,0 əmsalı tətbiq olunmaqla, 150 manat, 3500 kiloqramdan 7000 kiloqramadək olduqda 4,0 əmsal tətbiq olunmaqla, 200 manat, 7000 kiloqramdan artıq kütləyə görə isə 5,0 əmsal tətbiq olunmaqla, 250 manat sığortahaqqı hesablanır. Hüquqi şəxslərə məxsus avtonəqliyyat vasitələri üçün minik və yük nəqliyyat vasitəsi olmasından asılı olmayaraq, 1,2 əmsal əlavə edilir.

Sığorta haqlarının ödənilməsi formasına gəldikdə, burada son dövrlərdə tətbiq olunan mütərəqqi üsullar sürücülər üçün rahat şərait yaradıb. Belə ki, avtonəqliyyat vasitələri sahiblərinin sığorta müqaviləsinin bağlanılması elektron formada həyata keçirilir. Ümumi sistemə daxil edilmiş sığorta müqaviləsi sığortahaqqı ödəndikdən sonra avtomatik olaraq qüvvəyə minir. Belə elektron sığorta müqaviləsi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən elektron sığorta müqaviləsi sığortaçının elektron imzası ilə təsdiq edilən texniki və proqram vasitələrinin köməyi ilə bağlanılır.

Sığorta müqaviləsinin elektron qaydada bağlanılmasına keçməklə vətəndaşlar birbaşa elektron sığorta müqaviləsini əldə edə bilərlər. Həmçinin vətəndaşlar avtomobillərinin qeydiyyat şəhadətnaməsini və şəxsiyyət vəsiqəsində olan məlumatları seçdiyi sığorta şirkətinə və ya sığorta vasitəçisinə təqdim etməklə elektron sığorta müqaviləsini əldə edə bilərlər. Daha sonra bağlanılacaq sığorta müqaviləsi üzrə sığortalıya sığortahaqqının ödənilməsi üçün sığortalının müqavilədə göstərdiyi mobil telefon nömrəsinə qısa mesaj daxil olur. Sığortalı elektron poçt ünvanını təqdim etdiyi halda qısa mesaj ilə bərabər ödəniş kodu məlumatı sığortalının elektron poçt ünvanına da göndərilir. Məlumat və elektron məktubda avtomobilin dövlət qeydiyyat nişanı və ödəniş kodu, həmçinin sığortaçının adı qeyd olunur. Sığortahaqqı ödənildikdən sonra sığortalı ödənişlə bağlı təsdiqləyici mesaj alır və sığorta müqaviləsi dərhal qüvvəyə minir.

Avtonəqliyyat vasitələrinin sahibləri üçün ölkə daxilində tətbiq olunan standart mülki məsuliyyət sığortasından başqa digər bir mühüm sığorta növü də Yaşıl kart sığortasıdır. Belə ki, müasir dövrdə insanların səyahət etmək imkanlarının genişlənməsi ilə birlikdə öz avtomobili ilə xaricə səfər edənlərin sayında da artım vardır. Bu səfərlər zamanı fərdi avtomobili ilə xarici ölkələrə səyahətə çıxanlara təklif olunan Yaşıl kart sığorta şəhadətnaməsi muxtar respublikamızda da tətbiq olunmağa başlayıb. Bu yeni sığorta növü bir çox cəhətlərinə görə sürücülər üçün çox faydalıdır. Belə ki, ölkə ərazisində hərəkət zamanı tələb olunan standart mülki məsuliyyət sığortasından fərqli olaraq müəyyən müddətə belə sığorta şəhadətnaməsini alan avtonəqliyyat vasitəsi sahibləri xarici ölkələrə hər gedişi üçün yeni müqavilələr bağlamaqdan azad olurlar. Vətəndaşlar üçün bu sığorta növünün üstünlüyü ondan ibarətdir ki, onlar xaricə səfərə gedərkən sığorta agentliyi ilə bağladıqları Yaşıl kart sığortası zəmanəti ilə səyahət etdikləri ölkələrdə törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində vurduqları zərərin əvəzi hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyinə uyğun qaydada ödənilir.

Bütün bunlara yekun vuraraq deyə bilərik ki, avtonəqliyyat vasitələri sahiblərinin icbari sığortası müasir həyatımızın mühüm bir tələbatıdır. Bu tələbatın ödənilməsi üçün hər bir sürücünün vaxtında sığorta müqaviləsi bağlaması və öz hüquqlarından istifadə etməsi zəruridir.

**✍ Əli CABBAROV**

## Müsabiqənin qalibləri müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə yaradıcı gənclər, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin əl işlərindən ibarət sərgi keçirilib.

Rəssamlar Birliyinin əməkdaşı Nizami Alıyev, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli çıxış edərək bildiriblər ki, tədbirin keçirilməsində məqsəd yaradıcı gənclərin istedadlarının üzə çıxarılması və sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya olunmasıdır. Sərgiyə rəsm əsərləri, tikmə və toxuma, dekorativ sənət əsərləri olmaqla, 40 müəllifin 120-yə yaxın əl işi təqdim edilib. Sonra sərgidə fərqlənən əl işlərinin müəllifləri mükafatlandırılıblar.

Sərgidə əl işləri fərqləndiyinə görə Şəlalə Məmmədzadə, Züriyyə Musayeva, Zəhra Məmmədova, Müseyib Məmmədov, Röya İsmayılova, Qumru Sadiqova, İlhamə Səfərova və digərləri təşkilatçılar tərəfindən diplom, fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

## İstedadlı yeniyetmə və gənclər mükafatlandırılıb

Culfa Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə rayonun ictimai həyatında, yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Səfərova, rayon Gənclər və İdman İdarəsinin rəisi Ümüd Həsənli və Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə çıxış edərək yeniyetmə və gənclərə göstərilən dövlət qayğısından, rayonun ictimai həyatında və yaradıcılıq sahəsində, aparılan məqsədyönlü tədbirlərdə gənclərimizin fəaliyyətlərindən danışıblar.

Çıxışlardan sonra rayon Mədəniyyət Evinin "Çeşmə" musiqi instrumental ansamblı, Culfa şəhərindəki körpələr evi-uşaq bağçasının "Körpə fidanlar" rəqs qrupunun ifasında musiqi nömrələri səsləndirilib. Sonra səhnəyə balacaların sevimlisi Şaxta baba və Qar qız dəvət edilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı tərəfindən bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib. Sonda müxtəlif sahələrdə fərqlənən gənclər mükafatlandırılıb.

Analoji tədbir yerli icra hakimiyyətləri, gənclər və idman idarələri və Yeni Azərbaycan Partiyası rayon təşkilatları tərəfindən Ordubad, Şahbuz, Şərur, Sədərək, Babək və Kəngərli rayonlarında da keçirilib, fərqlənən gənclər təşkilatçılar tərəfindən mükafatlandırılıb.

## Cüdo üzrə rayon birinciliyi



***Culfa şəhər 3 nömrəli tam orta məktəbin idman zalında yeniyetmələr arasında 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş cüdo üzrə rayon birinciliyi keçirilib.***

Culfa Rayon Gənclər və İdman İdarəsi, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının Culfa rayon bölməsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyi və rayon Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə keçirilən birincilikdə 65 idmançı mübarizə aparıb.

Yarış əsasnaməyə uyğun olaraq 10 çəki dərəcəsində və Olimpiya sistemi üzrə təşkil edilib. Yarışdan öncə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov, Uşaq-gənclər idman məktəbinin direktoru Şahin Qasımov çıxış edərək keçirilən tədbirin mahiyyətindən, idmana göstərilən diqqət və qayğıdan, idmanın cüdo növündə əldə olunan son nailiyyətlərdən danışıb, rayonda fəaliyyət göstərən idman federasiyalarının iş prinsipləri haqqında tədbir iştirakçılarına məlumat veriblər.

Gərgin mübarizə şəraitində keçirilən yarışda Uğur Novruzov (24 kiloqram), Mirismayıl Seyidov (27 kiloqram), Sabir Nəcəfov (30 kiloqram), Cəfər Məmmədli (34 kiloqram), Kənan Fərzəliyev (38 kiloqram), Ayxan Abbasov (42 kiloqram), Abbas Məmmədov (46 kiloqram), Asif Məmmədov (50 kiloqram), Abbas Bayramzadə (55 kiloqram) və Elsevar Məmmədov (60 kiloqram) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Sonda qalib və fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**



## Yeni il bayramı tədbirləri keçirilən zaman yanğın təhlükəsizliyi qaydalarına əməl edək

***Qarşıdan Yeni il gəlir. Hamı bu bayramı gözəl əhval-ruhiyyə ilə qarşılamağa hazırlaşır. Evlərdə, mədəniyyət və təhsil müəssisələrində, insanların bayram şənliyinə kütləvi toplaşdıqları yerlərdə müvafiq hazırlıq işləri aparılır. Bu vaxt əsas şərtlərdən biri şənliklərin təşkili və keçirilməsi zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasıdır.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bildirir ki, Yeni il şənliyi keçirilərkən şamlardan, qığılcımsaçanlardan istifadə etmək, şam ağacının oyuncaqlarla, eləcə də pambıqla bəzədilməsi və işıqlandırılması qadağandır. Bayram şənlikləri keçirilən otaqların elektrik xətlərinin izolyasiyası saz vəziyyətdə olmalıdır. Yolkanın yanında azyaşlı uşaqlar nəzarətsiz buraxılmamalıdırlar. Bayram şənlikləri zamanı şam yandırılarkən onu öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yolverilməzdir.

Yolka qurulan otaqlardan xaricə iki sərbəst çıxış yolu olmalıdır və həmin çıxışların qapıları mütləq çıxış istiqamətinə açılmalıdır. Həmin qapıların qarşısına kənar əşyalar yığılmamalıdır.

Yeni il şənlikləri keçirilən yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir. Həmin yerlərdə siqaret çəkmək, zalın keçidlərinə stul qoymaq, köçürmə çıxış qapılarını bağlamaq və otağa təyin olunmuş normadan artıq adam yerləşdirmək qadağandır.

Qeyd olunanlarla bağlı baş verə biləcək xoşagəlməz hadisələrin qarşısının vaxtında alınması istiqamətində hamı diqqətli olmalı və yanğın təhlükəsi ilə üzləşdikdə dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin ***"112"*** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin ***"101"*** xidmətinə məlumat verilməlidir.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

## Qədim musiqi alətləri ansamblının konserti olub

***Ordubad Rayon Mədəniyyət Evində Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Aqib Seyidovun bədii rəhbəri olduğu Naxçıvan Dövlət Filarmoniyasının Qədim musiqi alətləri ansamblı geniş konsert proqramı ilə çıxış edib.***

Konsert qədim musiqi alətlərimizin təbliğinə həsr olunmuş gözəl bir tədbir kimi diqqəti cəlb edirdi. Konsertdə çəng, rud, rübab, çor, ney, bərbət, qopuz və başqa qədim milli musiqi alətlərimizin bir musiqi ansamblının ifasında səslənməsi tamaşaçılarda yüksək ovqat yaradıb.

Azərbaycan Respublikasının Əməkdar artisti Qurban Qasımovun ifasında "Qara tellər" xalq mahnısı səslənib. Qurban Qasımovun və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Qəribə Həsənovanın birgə ifa etdikləri "Ceyran sevgilim", Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Hünər Əliyevin "Alma dəyəndə gəlləm" xalq mahnısı və solist Nərmin Hüseynova ilə birgə ifa etdiyi "Sevgiyə naz nə gərəkdir" dueti, solist Cəfər Tağıyevin "Kərkük" mahnısı, "Dili-dili" xalq mahnısı maraqla qarşılanıb.

İstedadlı xanəndə Əbülfəz Məmmədovun ifasında "Bayatı-şiraz" təsnifindən sonra "Naz olaydı"xalq mahnısı səsləndirilib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfüqar Mahmudov, Xatirə Səfərova isə "Segah" təsnifi, "Qara gözün vəsməsi", "Çalpapaq", "Bircə dənəsən, ay qız" xalq mahnılarını ifa ediblər.

**Əli RZAYEV**

## Naxçıvan Dövlət Universiteti

## *2018-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə qəbul elan edir*

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 dekabr tarixli 870 nömrəli Sərəncamına uyğun olaraq təsdiq edilmiş plana əsasən aparılır. Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

***Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya büdcə hesabına, qiyabi şöbəyə***

German dilləri –1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası –1 yer
Sosial fəlsəfə – 1 yer

***Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya ödənişli əsaslarla, qiyabi şöbəyə***

Qeyri-üzvi kimya –1 yer
German dilləri –1 yer
Azərbaycan ədəbiyyatı – 1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası –1 yer

***Dissertanturaya büdcə hesabına***

Analiz və funksional analiz – 1yer
Yarımkeçiricilər fizikası – 1 yer
Fiziki kimya – 1 yer
Zoologiya –1 yer
Mikrobiologiya – 1yer
Botanika – 1yer (Naxçıvan Müəllimlər İnstitutu üçün məqsədli yer)
Parazitologiya –1 yer
Kompüter qurğuları və texnologiyası – 1yer
Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi –1 yer
Mühasibat uçotu – 1 yer
German dilləri – 1 yer
Jurnalistika – 1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 2 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün 1 məqsədli yer)
Musiqi sənəti – 1 yer
Sosial fəlsəfə – 1 yer

***Dissertanturaya ödənişli əsaslarla***

Astrofizika və ulduz astronomiyası – 1 yer
Qeyri-üzvi kimya –1 yer
Ekologiya – 1 yer
Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi –1 yer
İnformasiyanın mühafizəsi üsulları və sistemləri, informasiya təhlükəsizliyi – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Beynəlxalq münasibətlər tarixi – 1 yer
Dil nəzəriyyəsi – 1 yer
Azərbaycan dili – 1 yer
German dilləri – 1 yer
Azərbaycan ədəbiyyatı – 1yer
Dünya ədəbiyyatı – 1 yer
Folklorşünaslıq – 1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1yer
Pedaqoji psixologiya – 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- iş yerindən xasiyyətnamə;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

***Elmlər doktoru hazırlığı üzrə dissertanturaya büdcə hesabına***

Azərbaycan dili – 2 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün 1 məqsədli yer)
İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi – 1 yer

***Elmlər doktoru hazırlığı üzrə dissertanturaya ödənişli əsaslarla***

Azərbaycan dili – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və fəlsəfə doktoru (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş yerindən xasiyyətnamə;*
*- əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı;*
*- Fəlsəfə doktoru və ya elmlər namizədi elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya sənədlər 2017-ci il 27 dekabr -15 yanvar 2018-ci il tarixlərdə qəbul edilir.

Qəbul imtahanları 2018-ci il 16 yanvar-30 yanvar tarixlərdə keçiriləcəkdir.

(Şənbə və bazar günləri sənədlər qəbul olunmur.)


**ŞƏRQ qapısı**
**Baş redaktorun müavini:** RAUF ƏLİYEV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 1050**